# Bələdiyyə seçkiləri yüksək əhvali-ruhiyyə və seçici fəallığı ilə keçirilib

**Ölkəmizdə şəffaf, demokratik, seçki ənənəsi formalaşıb. Azərbaycanın Seçki Məcəlləsinə uyğun olaraq və vətəndaşların fəallığı şəraitində keçirilən seçkiləri istər xarici, istərsə də yerli müşahidəçilər izləyiblər. Seçicilərin öz konstitusion hüquqlarından istifadə etmələri üçün bütün seçki məntəqələrində aşkarlıq yaradılıb, seçkinin gedişi vebkameralar vasitəsilə izlənilib. Bölgələrdə də bələdiyyə seçkiləri yüksək əhvali-ruhiyyə və seçici fəallığı ilə keçirilib.**

## Sumqayıt

Sumqayıt şəhərində səhər saat 8:00-dan bələdiyyə seçkiləri üzrə səsverməyə start verilib. Şəhər üzrə ümumilikdə 272 min 474 seçici səsvermə hüququna malikdir. Onlardan 1841-i ilk dəfə 18 yaşlarını tamamlayaraq səsvermə haqqı qazanan şəxslərdir. 80-100 yaşlı seçicilərin sayı 3 min 593 nəfər təşkil edib. Yaşı 100-dən yuxarı olan seçici isə cəmi 1 nəfərdir. Sumqayıtda ümumilikdə 6 dairə üzrə 210 məntəqə var. 42 saylı Sumqayıt birinci seçki dairəsinin 7, 9, 18, 27, 32, 35, 41-ci seçki məntəqələrində veb-kamera quraşdırılıb. 43 saylı Sumqayıt ikinci seçki dairəsinin 2, 6, 9, 15, 20, 22, 29, 30, 36, 44 saylı Sumqayıt üçüncü seçki dairəsinin 4, 9, 14, 18, 21, 34, 35, 36, 45 saylı Sumqayıt dördüncü seçki dairəsinin 3, 7, 18, 30, 36, 37, 46 saylı Sumqayıt beşinci seçki dairəsinin isə 8, 10, 24, 28, 29-cu seçki məntəqələrində müşahidə üçün veb-kameralar quraşdırılıb.



Sumqayıt beşinci Dairə Seçki Komissiyasinin (DSK) sədri Elgün Hümbətov deyib ki, dairə üzrə 50 mindən çox seçici qeydiyyatdadır. Onlardan 600 nəfəri 80-100 yaş aralığında olan şəxslərdir. 200-dən çox seçici isə ilk dəfə səs verib. DSK sədrinin sözlərinə görə, daşınabilən qutularla bağlı müraciət daxil olmayıb. Seçki prosesi 5 məntəqədə quraşdırılan kameralar vasitəsilə izlənilib. Ümumilikdə heç bir qanun pozuntusu qeydə alınmayıb.

45 saylı Sumqayıt dördüncü Seçki Komissiyasının sədri Məhəbbət Məmmədova bildirib ki, seçicilər öz iradələrini 38 məntəqədə ifadə ediblər. Dairə üzrə seçki siyahısında 49 min 393 nəfər qeydə alınıb. Onlardan 314-ü ilk dəfə səsvermə hüququndan istifadə edib. Siyahıda 80 yaşından yuxarı 867 seçici olub. Ən yaşlı seçici isə 99 yaşındadır. Proses zamanı 1 ədəd daşınabilən qutudan istifadə olunub. Dairə üzrə 6 məntəqədə veb-kamera quraşdırılıb. Bu da səsvermə prosesini müşahidə etmək imkanı yaradıb. Seçici aktivliyi isə 27,3 faiz təşkil edib.

## Gəncə

Seçki dairələrində azad, demokratiklik və şəffaflıq təmin olundu. Dairələrin əhatə etdiyi bütün məntəqələrdə yüksək fəallıq müşahidə olundu. Səs verənlər dəstə-dəstə, bayram ab-havası ilə məntəqələrə gələrək öz iradələrini ifadə etdilər. 38 saylı Gəncə Birinci Seçki Dairə Komissiyasının sədri İbrahim Cəfərov məlumat verərək bildirdi ki, dairə üzrə 38



seçki məntəqə fəaliyyət göstərir ki, 52 mindən artıq seçicisi öz iradələrini ifadə etdilər. Seçkinin gedişini beynəlxalq və yerli müşahidəçilər izlədilər. Bələdiyyə üzvlərinə namizəd 29 nəfərdir. Ədalətli, şəffaf və demokratik seçkinin təminatı üçün bütün məntəqələrdə münbit şərait yaradılmış, 13 məntəqəyə veb-kamera quraşdırılmışdır. Seçicilərin 58 faiz qadın, 42 faizini kişi təşkil edir. Məhz ilk dəfə səs verən gənclərə maarifləndirmə işlərinin aparıldığından, hüquq və vəzifələri yaxşı bildiyindən olduqca fəallıq göstərdilər. Müşahidəçilərin dediyinə görə, səsvermə prosesində heç bir qanun pozuntusuna rast gəlinməyib.

39 saylı Gəncə İkinci Seçki Dairə Komissiyasının sədri Zakir Hüseynov bildirdi ki, 36 məntəqə fəaliyyət göstərib, 50155 nəfər seçici qeydiyyata alınmışdır. İlk dəfə səs verənlər 57 nəfər, 80-100 yaşına qədər 777 nəfərdir. Bələdiyyə üzvlüyünə 20 nəfər öz namizədliyini irəli sürmüşdür. Hər bir namizəd üçün maksimum şərait yaradılmışdır. Seçkilərdə şəffaflığın təmin edilməsi məqsədilə seçki dairəsinin 11 seçki məntəqəsində səsvermə prosesinin birbaşa izlənməsi üçün veb-kameralar quraşdırılmışdır. Seçicilər yüksək mütəşəkkillik nümayiş etdirib, öz layiqli seçimlərinə səs veriblər. Artıq səsverənlərin yarısından çoxu böyük ruh yüksəkliyi ilə öz iradələrini ifadə ediblər. Müşahidəçilərin dediyinə görə, səsvermə prosesində heç bir qanun pozuntusuna rast gəlinməyib. Şəhər ağsaqqalı, ixtiraçı alim, professor Nürəddin Məmmədov bildirdi ki, ailə üzvlərim, ən layiqli namizədə, Azərbaycanı sevən, sidq-ürəklə xidmət edən, qurub-yaradanlara səs verdik. 40 saylı Gəncə Üçüncü Seçki Dairə Komissiyasının sədri Elbar Əhmədovun verdiyi məlumata görə, dairə üzrə fəaliyyət göstərən 38 seçki məntəqəsində 51922 nəfər seçici qeydə alınıb. 44 nəfər bələdiyyə üzvlüyünə namizəd seçkidə mübarizə aparıb. Seçkinin şəffaflığı üçün 10 məntəqəyə veb-kamera quraşdırılmış, bütün məntəqələrdə seçicilərin azad və rahat səs verməsi üçün tam şərait yaradılmışdır. Seçicilər mütəşəkkilliklə iştirak edərək ən layiqli namizədlərə səs veriblər.

41 saylı Gəncə-Samux-Goranboy Seçki Dairəsinin sədri Nizami Hacıyev bildirdi ki, dairə üzrə fəaliyyət göstərən 45 seçki məntəqəsində 49 mindən çox seçici səs verdi. Bütün məntəqələrdə seçkinin mütəşəkkil keçməsi üçün maksimum şərait yaradılmışdır. Şəffaflığın təminatı üçün 8 məntəqədə veb-kameralar quraşdırılmışdır. Seçkilərdə 45 nəfər öz namizədliyini irəli sürüb. Əvvəlki seçkilərdə olduğu kimi, bu seçkini yüksək səviyyədə başa çatdırmaq üçün bütün imkanlar səfərbər edilmişdir.

## Mingəçevir

54 saylı Mingəçevir Seçki dairəsində də seçicilərin sərbəst, demokratik şəraitdə səs vermələri və şəffaf aparılması üçün məntəqələrdə hər cür şərait yaradılmışdır. Məntəqələrdə seçki fəallığı müşahidə olundu. Dairənin sədri Oqtay Məmmədov bildirdi ki, dairə üzrə 40 məntəqə fəaliyyət gös-



tərir. Ümumilikdə dairəni əhatə edən məntəqələrdə 50 min 269 seçici qeydə alınmışdır. Səsvermənin gedişini izləmək üçün 12 seçki məntəqəsində veb-kamera quraşdırılmışdır. Dairə üzrə 350-dən yuxarı müşahidəçi seçkinin gedişini izlədi. Heç bir qanun pozuntusu müşahidə olunmayıb. Seçicilərlə söhbət zamanı onlar bildirirlər ki, azad şəkildə öz vətəndaşlıq borclarını yerinə yetirdilər.

## Şirvan

Səhər tezdən şəhərdə qələbəlik hiss olunurdu. Sakinlər yerli özünü idarəetmə orqanı olan şəhər bələdiyyəsinin seçkisində iştirak etməyə tələsirdilər. Seçicilər arasında gənclərə, Şirvanın inkişafı, böyüyüb gözəlləşməsi, abadlaşması



yolunda saç ağartmış qocaman neftçilərə, energetiklərə, ictimaiyyət nümayəndələrinə rast gəldik. Şirvan 51 saylı Dairə Seçki Komissiyasında əsl işgüzar əhval-ruhiyyə müşahidə olundu. Komissiya üzvləri məntəqələrlə əlaqə saxlayır, telefon zənglərinə cavab verir, səsvermə prosesində qarşıya çıxan bir və ya digər problemin həllinə kömək göstərirdilər. DSK-nın sədri Taleh Ağayev vaxt tapıb seçkinin gedişi barədə məlumat verdi:

- Şəhərimizdəki 43 seçki məntəqəsində 52 mindən artıq vətəndaş səsvermədə iştirak edib. Onlardan 355 nəfəri ilk dəfə əlinə bülleten alan gənclərdir. Şəhər Bələdiyyəsinə üzv seçilmək üçün 31 namizəd seçki marafonuna qoşulub. Məntəqələrdə azad, bərabər, demokratik seçki mühiti yaradılıb. 11 məntəqədə quraşdırılan veb-kameralar vasitəsilə seçkilər izlənilib, komissiya üzvləri normal iş rejimində fəaliyyət göstərib, müşahidəçilərə, jurnalistlərə istənilən şərait yaradılıb.

Saat 19:00-da Dairə Seçki Komissiyası ilə yenidən əlaqə saxladıq. Sədr razılıq hissilə səsvermənin normal şəkildə, mövcud qanunların tələblərinə uyğun başa çatdığını bildirdi. Şəhər 13 saylı məktəbdə fəaliyyət göstərən və səsverməni şəffaf, seçici fəallığı ilə başa vuran 5 saylı məntəqənin işi xüsusi qeyd edildi.

## Lənkəran

Lənkəran rayonunda 76 saylı Lənkəran-Masallı, 77 saylı Lənkəran şəhər, 78 saylı Lənkəran kənd seçki dairələri fəaliyyət göstərir. Üç seçki dairəsi üzrə 132 məntəqədə 139261 nəfər seçici qeydə alınıb.



Səhər saatlarından başlayaraq rayonun şəhər, qəsəbə və kəndlərində seçki məntəqələrinin qarşısında əsl canlanma, xoş ovqat hiss olunurdu. Lənkəranlılar 24 bələdiyyəyə yeni üzvlər seçmək üçün məntəqələrə gəlirdilər. Rəqabət də kifayət qədər yüksəkdir: 278 bələdiyyə üzvlüyünə 511 nəfər namizəd mübarizə aparırdı.

Seçicilərin gedişini izləmək üçün 77 saylı Lənkəran şəhər seçki dairəsinin 8 nömrəli məntəqəsində olduq. Məntəqə Lənkəran şəhər xarici dillər təmayüllü gimnaziyanın binasında yerləşir. Seçicilər növbə ilə məntəqəyə gəlir, qeydiyyatdan keçərək səsvermə kabinələrinə daxil olurdular. Məntəqə elektrik, internet, rabitə xidmətləri, zəruri avadanlıq və əyani vəsaitlərlə təchiz edilib. Komissiya üzvləri və müşahidəçilər üçün normal iş şəraiti yaradılıb.

Məntəqənin sədri İlham Əsədullayev bildirdi ki, 1361 nəfər seçicinin qeydə alındığını, onların azad, şəffaf və demokratik şəraitdə səsverməsi üçün hər cür şərait yaradılıb.

- Budəfəki bələdiyyə seçkilərinə maraq çoxdur. Lənkəran bələdiyyəsinə 17 üzv seçiləcəkdir. Namizədlərin sayı isə 30 nəfərdir. Səhər saat 8-də səsvermə başlayanda şəhər sakinlərindən Rafiq Mirzəyev, Fərqanə Babayeva, Aysel Əliyeva və Məmməd Səfərov ilk səs verənlərdir.

Məntəqədə seçkilərin gedişi veb-kamera vasitəsilə izlənilirdi. Müşahidəçilərdən Elxan Qəhrəmanov və Şahin Əkbərli seçkilərdə heç bir qanun pozuntusuna yol verilmədiyini, seçicilərin azad, sərbəst şəkildə istədikləri namizədlərə səs verdiklərini dedi.

Lənkəran rayonu üzrə bələdiyyə seçkilərində ilk dəfə səsverənlərin sayı 649 nəfərdir. Onlardan 45 nəfərinin yanvar ayında 18 yaşı tamam olub. Yaşlı seçicilərin sayı isə 2049 nəfərdir. Üç seçicinin yaşı 100-ü ötüb. Ən yaşlı seçici Qızvəs Səmid qızı Mehdiyevanın 105 yaşı vardır.

76 saylı Lənkəran-Masallı seçki dairəsinin 29 saylı məntəqəsi Xarxatan kənd tam orta məktəbinin binasında yerləşir. Məntəqənin sədri Faiq Babayev məntəqədə 1472 seçicinin qeydə alındığını, onların böyük əksəriyyətinin səsvermədə iştirak etdiyini bildirirdi. Şağlaser bələdiyyəsinə 22 namizəd seçkilərə qatılıb, onlardan 13-ü bələdiyyə üzvü seçilib. Müşahidəçilər tərəfindən heç bir qanun pozuntusu aşkarlanmayıb. Xarxatan kənd sakini, seçici Rasim Rəhimov dedi ki, seçkilər qanunvericiliyin tələblərinə uyğun keçirilir, seçicilər azad, sərbəst şəkildə öz seçimlərini etdilər. Əminəm ki, yeni seçiləcək bələdiyyə üzvləri sakinlərin arzu və istəklərini, ümidlərini doğruldacaq, Şağlaser, Xarxatan, Cil kəndlərinin inkişafına və tərəqqisinə öz töhfələrini verəcəklər.

Rayonun 22 seçki məntəqəsində quraşdırılmış veb-kamera vasitəsilə seçkilərin gedişi izlənilib. Həmçinin səsvermənin gedişi siyasi partiyaların təqdim etdikləri və öz təşəbbüsü ilə qeydiyyatdan keçmiş 1400-dən artıq müşahidəçi tərəfindən də izlənilib. Seçicilər fəallıq, işgüzarlıq nümayiş etdirib, inandıqları, etibar etdikləri fəal namizədlərə səs veriblər.

## Masallı

Masallı seçicilərin sayına görə cənub bölgəsində öncül rayonlar sırasındadır. Rayonun ərazisində 73 saylı Masallı-Cəlilabad, 74 saylı Masallı, 75 saylı Yardımlı-Masallı, 76 saylı Lənkəran-Masallı Dairə Seçki Komissiyaları fəaliyyət göstərir.



73 saylı Masallı-Cəlilabad Seçki Dairəsinin sədri İlkin Hüseynov seçki sahəsində zəngin təcrübəyə malikdir. On ilə yaxındır ki, dairəyə rəhbərlik edir. Növbəti bələdiyyə seçkilərini respublikamızın ictimai-siyasi həyatında mühüm hadisə olduğunu vurğulayaraq dedi:

- Dairəmiz üzrə 6 bələdiyyəyə seçkilər keçirilib. Seçicilərin sayı 50303 nəfərdir. Bələdiyyə üzvlüyünə seçilmək üçün 156 namizəd seçkilərdə iştirak edib. Mövcud qanunvericiliyə uyğun onlardan 80 nəfəri seçilib. Məntəqələrdə seçicilərin azad, aşkarlıq mühitində, sərbəst şəkildə səsverməsi üçün hər cür şərait yaradılıb. 11 məntəqədə seçkilərin gedişi internet vasitəsi ilə izlənilib. Bundan əlavə qeydə alınmış 687 nəfər müşahidəçi seçkiləri izləyir.

20 saylı Meşəkənarı kənd seçki məntəqəsinin sədri Aqil Lətifov Təzə Alvadı bələdiyyəsinə keçirilən seçkilərdə 13 bələdiyyə üzvlüyünə 24 nəfərin mübarizə apardığını bildirdi. Məntəqə üzrə seçicilərin sayı 364 nəfərdir. Müxtəlif partiyaları təmsil edən 6 müşahidəçi seçki prosesini izləyib.

Səsvermə prosesi Seçki Məcəlləsinin tələblərinə və müvafiq təlimatlara uyğun aparılıb. Məntəqədə seçici fəallığı yüksək oldu. Seçkilərin gedişində qanun pozuntusu qeydə alınmayıb.

37 saylı Xırmandalı kənd seçki məntəqəsinin sədri Xəlil Ramazanov bildirdi ki, məntəqədə 1145 seçicinin azad, sərbəst şəkildə səsverməsi üçün lazımi şərait yaradılıb. Səhər saatlarından başlayaraq məntəqədə seçici axını müşahidə olundu. Kənd sakini Rəfail Məmiyev və Asif Cəfərov ilk səs verərək seçkilərin gedişinə xeyir-dua verdi. Yeni Azərbaycan Partiyasını təmsil edən müşahidəçi Azad Qasımov seçicilərin doğma kəndin inkişafına, parlaq sabahına fəallıqla səs verdiklərini məmnunluqla bildirdi.

Rayonun digər seçki məntəqələrində də səsvermə uğurla başa çatıb. 73 saylı Masallı-Cəlilabad Seçki Dairəsindən bildirdilər ki, seçici fəallığı yüksək olmuşdur. Bu göstərici 19, 21, 23, 24, 26 və 36 saylı məntəqələrdə daha yuxarı olub.

## Ağsu



Ağsu rayonunda 90 saylı seçki dairəsinin 33 saylı seçki məntəqəsində seçkilər qanunvericiliyə uyğun, şəffaf şəkildə təşkil olunub. Seçki məntəqəsinin sədri Mirzağa Səmədov bildirdi ki, bələdiyyə seçkilərinin tam demokratik şəraitdə keçirilməsi üçün bütün müvafiq tədbirlər görülüb. O, 30 il seçki prosesində aktiv işlədiyindən və son illər seçki məntəqəsinə sədrlik etdiyindən böyük təcrübəyə malikdir. Bu səbəbdən də qeyd etdi ki, ötən il keçirilən növbədənkənar prezident və parlament seçkilərində olduğu kimi bələdiyyə seçkilərində də seçicilər fəallığı ilə seçilib. Əvvəlki illərlə müqayisədə bələdiyyə seçkilərində seçicilərin iştirakı xeyli artıb və ilk dəfədir ki, siyasi partiyalar fəal şəkildə iştirak ediblər. Bu da ölkəmizdə yerli özünüidarəetmə institutunun cəmiyyətdə artan nüfuzunu göstərir. Seçkilərin azad və ədalətli keçirilməsi də seçicilər tərəfindən məmnunluq hissi ilə qarşılandığından seçki fəallıqla keçirilib. Belə ki, 1918 seçicinin səs verməsi üçün şərait yaradılıb. Qeyd edək ki, 11 bələdiyyə üzvü seçilməsi üçün namizədliyini irəli sürən 20 nəfərin arasında mübarizə aparılıb. Ev şəraitində səsvermə üçün səyyar qutular əvvəlcədən nəzərdə tutulsa da heç kim müraciət etməyib. Rayonun Qaraqaşlı kəndində fəaliyyət göstərən seçki məntəqəsində 16 kəndi təmsil edən bələdiyyə seçilib.



## Bərdə

Bərdə rayonunda seçkilərdə iştirak etmək üçün seçicilər səhər saatlarından başlayaraq seçki məntəqələrinə üz tuturdular. 98 saylı Bərdə-Tərtər seçki dairəsinin sədri Namiq Quliyev bildirdi ki, dairə üzrə 52981 nəfərin böyük əksəriyyəti 61 məntəqədə səs verib.



99 saylı Bərdə Dairə Seçki Komissiyasının sədri Dilsuz Nəcəfovdan aldığımız məlumata görə dairə üzrə 51986 nəfər səsvermə hüququna malik seçicinin çox hissəsi 60 məntəqədə səsvermədə iştirak edərək istədikləri namizədlərə səs veriblər. Məntəqələrin qarşısında seçici fəallığı müşahidə olunur. Seçicilər sərbəst qaydada kabinələrə daxil olaraq layiqli namizədə səs veriblər.

## Şəmkir

102 saylı Şəmkir şəhər Dairə Seçki Komissiyasının sədri Fuad Bədəlov bildirdi ki, dairə üzrə 57526 nəfər səsvermə hüququna malik seçici qeydə alınıb. Onlardan böyük əksəriyyəti 54 məntəqədə (2-si qapalı) istədikləri namizədlərə səs veriblər. Sədr bildirdi ki, məntəqələrin hər biri zəruri avadanlıqlarla tam təchiz olunmuşdur. Məntəqələrdə seçkilərin şəffaflığına nəzarət etmək üçün qeydiyyatdan keçmiş müşahidəçilərə münbit şərait yaradılmışdır.

## Tovuz

105 saylı Tovuz-Gədəbəy Dairə Seçki Komissiyasının sədri Mahir Həsənov məlumat verdi ki, dairə üzrə 54041 nəfər səsvermə hüququ olan seçici qeydə alınmışdır. Se-



çicilər 55 məntəqədə (2-si qapalı) istədikləri layiqli namizədə səs veriblər. Sədr bildirdi ki, seçicilər üçün tam şəffaf şərait yaradılmışdır. Yaşı 100-dən yuxarı olan 7 nəfər ahıl seçicinin yaşadığı ünvana müraciətləri əsasında daşınan seçki qutuları aparılmışdır ki, bu da seçicilərin məmnunluğuna səbəb olmuşdur. Müşahidəçilər yaradılan şəraitdən razı qaldıqlarını bildiriblər.

107 saylı Tovuz-Qazax-Ağstafa Dairə Seçki Komissiyasının sədri Fərman Qurbanovdan aldığımız məlumata görə dairə üzrə 49787 seçki hüququna malik seçici qeydiyyata alınmışdır. Seçki zamanı heç bir neqativ hal baş verməyib. Dairə üzrə seçki mütəşəkkilliklə başa çatıb.

**(davamı 8-ci səhifədə)**

# Bələdiyyə seçkiləri yüksək əhvali-ruhiyyə və seçici fəallığı ilə keçirilib

(əvvəli 7-ci səhifədə)

## Balakən

Ötən gün səhər tezdən Balakən, Zaqatala, Qax rayonlarında fəaliyyət göstərən seçki məntəqələrində seçici aktivliyi müşahidə olunub. Keçirilən 6-cı bələdiyyə seçkilərində 110 saylı Balakən seçki dairəsində 11, 111 saylı Zaqatala-Balakən seçki dairəsində 7, 112 saylı Zaqatala seçki dairəsində 10, 113 saylı Qax-Şəki seçki dairəsində Qax üzrə 8 bələdiyyə üzrə seçkilər keçirilib.





Məntəqələrdə müxtəlif partiyaları təmsil edən, eyni zamanda öz təşəbbüsü ilə qeydiyyatdan keçərək seçkiyə qatılan namizədlərin müşahidəçiləri səsvermənin gedişatını izləyiblər. Eyni zamanda aşkarlığın və şəffaflığın təmin edilməsi üçün veb-kameralardan istifadə olunub. Məntəqələrdə seçici aktivliyini müşahidə edərkən müxtəlif yaş qruplarından olan seçicilərin necə həvəslə öz vətəndaşlıq hüquqlarını reallaşdırdığının şahidi olduq.

110 saylı Balakən seçki dairəsinin tərkibində olan Meşəşambul bələdiyyəsi Abjit, Qaysa, Qazbölük və Meşəşambul kəndlərini əhatə edir. Qaysa kəndinin sakinləri Qaysayeva Meysarat nənə və ilk dəfə səsvermədə iştirak edən 18 yaşlı nəvəsi ilə birlikdə məntəqəyə gəldilər.

Meysarat xanım qeyd etdi ki, istədiyi namizədə səs verib. İki böyük kənd Qaysa və Meşəşambul kəndləri birləşərək ümumi Meşəşambul bələdiyyəsində birləşib. Dəstə-dəstə



məntəqəyə üz tutan seçicilər öz aralarında səs verəcək namizədləri bir daha müzakirə edirdilər.

Onu da qeyd edim ki, bu gün BDU-nun tələbəsi, ilk dəfə səs verən nəvəm Havva üçün uğurlu oldu. İmtahanları əla qiymətlərlə verib evə gələn nəvəm adına gəlmiş bildirişi görüb sevinci ikiqat oldu. Mən də dövlətimizin hüquqi vətəndaşıyam dedi.

112 saylı Zaqatala dairəsinin nəzdində olan Mosul-Yengiyan bələdiyyəsində Kəpənəkçi kəndi də var. 33 saylı Yengiyan, 34 saylı Kəpənəkçi məntəqəsində seçki yüksək seçici fəallığı ilə başa çatıb.

113 saylı Qax-Şəki dairəsinin Qax 2 nömrəli məntəqəsində 84 yaşlı Fikrət Abbasovla qohumu 19 yaşlı Toğrul səsvermədə birlikdə iştirak etdilər.

Məntəqələrdə 60 faizdən çox seçicilər səsvermədə iştirak etdilər.

## Astara

79 saylı Astara Seçki Dairəsi 50 seçki məntəqəsini birləşdirir. Seçki dairəsinin katibi Gülhəsən Mirzəyev dairə üzrə 4 bələdiyyəyə seçkilərin keçirildiyini, 49 min 175 nəfər seçicinin qeydə alındığını bildirdi. Ən yaşlı seçicinin yaşı 100-ü ötüb.



Seçkilərdə 107 namizəd 58 bələdiyyə üzvlüyü uğrunda mübarizə aparırdı. Seçkilərin gedişi 11 məntəqədə quraşdırılmış veb-kameralar və 616 nəfər müşahidəçi tərəfindən izlənilirdi.

Astaralılar inkişafa, tərəqqiyə, əhalinin rifahının yaxşılaşmasına töhfələr verə bilən bacarıqlı, layiqli namizədlərə səs vermək üçün məntəqələrə gəlirdilər. Astara şəhərindəki 1



saylı seçki məntəqəsində seçici fəallığı nəzərə çarpırdı. Məntəqənin sədri Hacıbala Ramazanov bildirdi ki, 1498 nəfər seçici qeydə alınıb. Seçicilər növbə ilə qeydiyyat stoluna yaxınlaşır, bülləten götürüb Konstitusiya hüquqlarından istifadə edirdilər.

Respublikanın Əməkdar müəllimi, 92 yaşlı ağsaqqal Heybət Hüseynov seçicilərin mütəşəkkil qaydada seçkilərdə iştirakını Astara bələdiyyəsinə olan inamın bariz nümunəsi kimi dəyərləndirdi. Seçicilərin demokratik şəraitdə sərbəst şəkildə öz siyasi iradəsini və seçki mədəniyyətini nümayiş etdirdiyini bildirdi.



Məntəqədə veb-kamera qurulmuşdu. Müşahidəçilərdən Əmir Abıyev ehtiyatda olan zabit olduğunu, özünün Birinci Qarabağ müharibəsində, oğlu Şəhriyarın 44 günlük Vətən müharibəsində iştirak etdiyini dedi. Ailə üzvləri ilə məntəqəyə gəlib layiqli namizədə səs verdiklərini, seçkilərin şəffaf keçdiyini, heç bir qanun pozuntusunun qeydə alınmadığını söylədi.

Məntəqənin sədri Hacıbala Ramazanov seçicilərin böyük əksəriyyətinin səsvermədə iştirak etdiyini, seçici fəallığının yüksək olduğunu bildirdi.

Ərçivan bələdiyyəsi üzvlüyünə 30 namizəd seçkilərdə iştirak edirdi. Qəsəbədəki 31 saylı məntəqənin sədri Ceyhun Baxşıyev 15 namizədin seçiləcəyini, xəstə olduğu üçün 4 seçicinin evinə daşınan seçki qutusunun aparıldığını bildirdi. Onlardan biri də 101 yaşlı Məryəm Dadaş qızı Diyarovadır.

Vətən müharibəsi şəhidi Baba Qasımovun atası Əhməd Qasımov səsvermədən sonra fikirlərini bölüşdü: "Azad, ədalətli seçkilər üçün məntəqədə normal şərait yaradılıb. Yaxından tanıdığım, inandığım namizədlərə səs verdim. İnanıram ki, dəstəklədiyim namizədlər seçiləcəksə, qəsəbəmizin inkişafında fəal iştirak edəcəklər".

79 saylı Astara Seçki Dairəsi üzrə seçicilər səsvermədə daha fəal iştirak ediblər.

## Lerik

80 saylı Lerik-Astara Seçki Dairəsinin 127 seçki məntəqəsi səhər saat 8-dən qapılarını seçicilərin üzünə açmışdı. Dairə üzrə 12 bələdiyyəyə yeni üzvlər seçmək üçün seçicilər axın-axın məntəqələrə gəlirdilər. 278 nəfər namizəd 142 yer uğrunda mübarizə aparırdı. Müxtəlif siyasi partiyaları təmsil edən və öz təşəbbüsü ilə qeydə alınan 1400-dən çox müşahidəçi səsverməni izləyirdi.





Dağlar qoynunda yerləşən Monidigah kəndindəki 13 saylı seçki məntəqəsində Çayrud bələdiyyəsinə seçkilər keçirildi. Məntəqənin sədri Zamin Mirzəyev 23 nəfər namizədin 11 yer uğrunda mübarizə apardığını bildirdi. Kəndin 96 yaşlı sakini Həmzə İsayev seçki bülletenini qutuya daxil edib seçkilərə böyük ümid bəslədiyini, yeni seçiləcək bələdiyyə üzvlərinin etimadı doğruldacağına əminliyini ifadə etdi.

1 nömrəli seçki məntəqəsi Rövşən Abdullayev adına Lerik Rayon Mədəniyyət Mərkəzində yerləşir. Məntəqənin sədri Bəylər Salmanov ənənəyə uyğun olaraq səhər saat 8-də ağsaqqallardan Hidayət Bəşirovun, Aydın Abdullayevin məntəqəyə gəlib seçki prosesinə xeyir-dua verdiyini söylədi.

Lerik rayon veteranlar təşkilatının sədri, tanınmış, nüfuzlu ziyalı Hidayət Bəşirov seçkilər barədə fikirlərini bizimlə bölüşdü:

- Müstəqil, suveren dövlətdə yaşayırıq. Xalqımıza sevinc, qələbə çox yaraşır. Seçicilərin üzündə sevinc, xoş təbəssüm görürəm. Seçkilər obyektiv, ədalətli şəkildə keçirildi. İnanıram ki, yeni seçiləcək bələdiyyə üzvləri Lerik şəhərinin iqtisadi, sosial və mədəni inkişafında öz sözünü deyəcəklər.

Lerik şəhərinin 92 yaşlı sakini Aydın Abdullayev bələdiyyə seçkilərində böyük ruh yüksəkliyilə iştirak etdiyini dedi və seçkiləri demokratiya yolunda növbəti addım kimi qiymətləndirdi. Arzu edirəm ki, bu seçkilər xalqımıza xeyirli və düşərli olsun.

80 saylı Lerik-Astara seçki dairəsini əhatə edən bütün məntəqələrdə səsvermə uğurla başa çatıb.

## Ağcabədi

Ağcabədili seçicilər yanvarın 29-da yerli idarəetmə orqanlarına keçirilən seçkilərdə fəal iştirak ediblər. Rayonda 85 və 86 saylı seçki dairələri üzrə keçirilən bələdiyyə seçkiləri uğurla başa çatıb. Seçicilər məntəqələrə gələrək səsvermə hüquqlarından istifadə edib, istədikləri namizədə səs veriblər. 85 saylı Füzuli-Ağcabədi Dairə Seçki Komissiyasının sədri İbrahim Həsənov bildirib ki, dairə üzrə 6 bələdiyyəyə 64 üzv seçilib. Seçkidə 139 namizəd mübarizə aparıb. Dairənin tərkibinə daxil olan 30 seçki məntəqəsi üzrə 22 min 548 seçici qeydə alınıb. Onların böyük əksəriyyəti öz səsvermə hüququndan istifadə edib. Seçicilərdən 102 nəfəri ilk dəfə səs verən gənclərdir. Səsvermənin gedişini 300 nəfərdən çox müşahidəçi izləyib.

86 saylı Ağcabədi Dairə Seçki Komissiyasının sədri Famil İsmayılov bildirib ki, səsvermə seçki dairəsi üzrə 52 məntəqədə keçirilib. Məntəqələrin 9-da veb-kamera quraşdırılıb. Seçki dairəsində 9 bələdiyyə üzrə 101 bələdiyyə üzvlüyünə 222 namizəd mübarizə aparıb. Seçkiləri izləmək üçün 676 müşahidəçi qeydiyyatdan keçib. Səsvermə seçicilərin fəallığı şəraitində keçib. 85 saylı Füzuli-Ağcabədi seçki dairəsinin Hindarx qəsəbə 2 nömrəli ümumi orta məktəbdə yerləşən 40 saylı məntəqə seçki komissiyasının sədri Elminaz Hüseynovanın bildirdiyinə görə, məntəqədə 1271 seçici qeydə alınıb. Səsvermə şəffaf və demokratik şəraitdə keçirilib. Səsvermənin gedişini izləyən müşahidəçilər Rasim Ağalarov və Allahverən Həsənov seçkilərin demokratik şəkildə keçirildiyini və heç bir qanun pozuntusuna rast gəlmədiklərini bildirdilər.

## Beyləqan

83 saylı Beyləqan Seçki Dairəsinin sədri Zakir Vəlişov bildirdi ki, 61 məntəqədə səsvermə uğurla həyata keçirilib. 2 şəhər, 5 kənd məntəqəsində veb-kamera quraşdırılıb.



55478 seçici siyahısı dəqiqləşdirilib, 300 nəfərdən çox gənc ilk dəfə səs verib. 605 nəfər müşahidəçi qeydiyyatdan keçib. Komissiyanın sədri seçkilərin mütəşəkkil keçdiyini bildirdi, seçicilər istədikləri namizədə səs veriblər.

## Yardımlı

75 saylı Yardımlı-Masallı Seçki Dairəsi 88 məntəqəni birləşdirir. Məntəqələrin 69-u Yardımlı, 19-u Masallı rayonunun ərazisində yerləşir. Seçicilərin ümumi sayı 49744 nəfərdir. Seçkilərdə 239 namizəd 127 bələdiyyə üzvlüyü uğrunda mübarizə apardı.

Yardımlı şəhərindəki 1, 2, Şəfəqli kəndində 45, Çayüzü kəndində 39, Avaş kəndində 66 saylı, Masallı rayonunun Banbaçı kəndindəki 85 saylı məntəqələrdə veb-kameralar quraşdırılıb. Rayonda ən yaşlı seçici Bozayran kənd sakini 112 yaşlı Gülbəgim Kəlbi qızı Rəhmanovadır.

Yardımlı bələdiyyəsinə üzv seçilmək üçün 12 məntəqədə seçkilər keçirildi. Seçicilərin sayı 8533 nəfər idi. 13 bələdiyyə üzvlüyünə 22 namizəd rəqabət apardı. Yardımlı şəhərindəki 1 saylı seçki məntəqəsinin sədri Asif Ağayev seçki prosesinin Seçki Məcəlləsinə və MSK-nın təlimatlarına uyğun keçirildiyini bildirdi. Seçicilər Konstitusiya hüquqlarından istifadə edərək məntəqəyə gəlir, sərbəst şəkildə öz seçimlərini edirdilər.

Seçici Ağasəlim Səmədov seçkilərin gedişindən razılığını ifadə etdi. Müşahidəçi Hüseyn Məmişzadə seçkilərin azad, sərbəst, demokratik və şəffaf keçirildiyini, heç bir qanun pozuntusuna yol verilmədiyini bildirdi.

Şəfəqli bələdiyyəsi 9 kəndi əhatə edir. 27 saylı Pirenbel seçki məntəqəsində Şəfəqli bələdiyyəsinə seçkilər keçirdi. Məntəqənin sədri respublikanın Əməkdar müəllimi, nüfuzlu ağsaqqal Mirhəqiqət Həsənov seçkilərin gedişi barədə məlumat verərək dedi ki, məntəqədə 396 seçici qeydə alınıb. Seçicilər 20 namizədə səs verdilər, onlardan 11 nəfəri Şəfəqli bələdiyyəsinə üzv seçiləcəkdir. Seçkiləri 12 müşahidəçi izlədi.

Qabaqcıl müəllim Mirtacir Xurşidov seçkilərin kənd sakinləri üçün çox önəmli olduğunu bildirdi. Qalib ölkənin vətəndaşı kimi seçkilərdə iştirak etmək olduqca qürurvericidir. Seçkilərdə fəal iştirak etmək, vətəndaş mövqeyini ortaya qoymaq hər birimizin borcudur.

## Samux

101 saylı Samux-Şəmkir Seçki Dairəsinin əhatə etdiyi 58 seçki məntəqəsindən 34-ü Samux, 24-ü isə Şəmkir ərazisində fəaliyyət göstərir. Dairənin sədri Bayram Qasımovun



verdiyi məlumata görə, ümumi seçicilərin sayı 54225 nəfərdir ki, onların 355 nəfərdən çoxu ilk dəfə səs verəndir. Samux rayonu Qarayeri qəsəbəsində yerləşən 16 saylı məntəqədə olduq. Seçicilərin normal şəraitdə öz iradələrini ifadə etmələri, istədikləri namizədləri şəffaf şəraitdə öz səslərini vermələri üçün hər cür şərait yaradılmışdır. Seçki prosesini izləyən müşahidəçilər heç bir pozuntunun olmadığını bildirdilər.

Qəsəbədə seçki tam demokratik, şəffaf olaraq, böyük bayram əhvali-ruhiyyəsi ilə keçirildi.

## Yevlax

Yevlax şəhərində də vətəndaşlar növbəti bələdiyyə seçkilərində yüksək əhvali-ruhiyyə və fəallıqla iştirak etdilər. 52



saylı Yevlax Seçki Dairəsində olan 55 məntəqə saat 8-dən öz qapısını seçicilər üzünə açdı. Seçicilər böyük sevinc hissi ilə yüksək şərait yaradılmış məntəqələrə daxil olur, öz iradəsini ifadə edərək, layiqli namizədlərinə səs verirdilər. 52 saylı Yevlax Seçki Dairəsinin sədri Yaşar Abbasov qeyd etdi ki, göründüyü kimi seçicilərin azad, şəffaf və sərbəst səs verməsi üçün maksimum şərait yaradılmışdır. Məntəqələrə baş çəkdik. Bütün məntəqələrdə növbə müşahidə olunurdu. Məntəqə üzvləri yüksək həvəslə və fəallıqla seçicilərə xidmət edir, onların rahat səs vermələri üçün şərait yaradırdılar. Seçicilər azad və ədalətli seçkinin təşkilindən məmnunluq duyur, ölkənin yüksək inkişafı üçün layiqli namizədlərinə səs verirdilər. Məntəqələrdə iştirak edən müşahidəçilər seçki prosesini regionda ən yaxşı, aydın və şəffaf seçki kimi dəyərləndirir və təqdirəlayiq hesab etdilər.

53 saylı Yevlax-Mingəçevir Seçki Dairəsinin sədri İsrail Bəkirov bildirdi ki, seçki dairəsində fəaliyyət göstərən 52 seçki məntəqəsində ümumi seçicilərin sayı 54948 nəfərdir. Onlardan ilk dəfə səs verən 379 nəfər, 80-100 yaşlı nəslin nümayəndəsi 788 nəfər, 100 yaşından yuxarı 2 nəfərdir. Seçkinin keyfiyyətini və şəffaflığını artırmaq məqsədilə 7 ədəd veb-kamera quraşdırılmışdır. Məntəqələrdə yüksək seçici fəallığı müşahidə etdik. Heç bir müdaxilə və təzyiq olmadan bütün seçicilər kabinəyə girərək öz layiqli namizədinə səs verdilər. Seçici məntəqələrində ilk dəfə səs verən gənclərin seçki aktivliyi diqqətəlayiq idi.

## Göygöl

100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsinin sədri İftixar Hüseynov bildirdi ki, dairənin əhatə etdiyi 95



seçki məntəqəsində ümumi 49752 nəfər seçici qeydə alınıb. Şəffaf və demokratik seçkinin təminatı üçün bütün məntəqələrdə mövcud şərait yaradılmış, 9 məntəqəyə veb-kamera quraşdırılmışdır, 765 müşahidəçi səsvermə prosesini izlədi, heç bir qanun pozuntusuna rast gəlinməyib. Sözün əsl mənasında, Göygölün seçki məntəqələrində seçki fəallığı çox yüksək idi.

## Goranboy



96 saylı Goranboy-Naftalan seçki dairəsinin sədri Arif Abbasov bildirdi ki, 63 məntəqədə 54 mindən çox nəfər seçici səs verib. Seçkinin keyfiyyətini və şəffaflığını artırmaq məqsədilə 7 ədəd veb-kamera quraşdırılmış, fasiləsiz elektrik enerjisi, su təchizatı, zəruri avadanlıqlarla yüksək səviyyədə təmin olunmuşdur. Seçkilər demokratik, şəffaf və mütəşəkkil keçirildi. 412 müşahidəçi seçkini izlədi, heç bir qanun pozuntusu qeydə alınmadı.

## İmişli

İmişli rayonunda dairə və seçki komisiyalarında, seçki məntəqələrində qaynar mühit, işgüzarlıq müşahidə olunub. Rayonun ağsaqqalları, nüfuzlu ziyalıları, yeni Azərbaycan partiyasının fəalları əhali ilə birlikdə seçkilərdə iştirak ediblər. 82 saylı İmişli-saatlı Dairə seçki Komisiyasının 33 saylı Aranlı məntəqə seçki Komisiyasının sədri Adil məlikov bildirib ki, seçicilərin fəallığına və ilk dəfə səs verəcək gənclərin maarifləndirilməsinə xüsusi önəm verilib. Seçki Məcəlləsinin tələblərinə uyğun keçirilməsi üçün real, yüksək standartlara uyğun şərait yaradılıb. Məntəqələrdə seçki siyahılarının dəqiqləşdirilməsi diqqət mərkəzində saxlanılıb. 1057 nəfər seçicidən 18-nin yaşı 80-i keçmişdi. İlk dəfə 7 nəfər gənc səs verdi. Hazırkı vəziyyətdə 286 nəfər səsvermədə iştirak edib. Seçkilərin nəticəsi qənaətbəxş olub.

## Ağdam

119 saylı Ağdam kənd seçki dairəsində də seçkilər şəffaf olub. Demokratik dəyərlərin,insan hüquq və azadlıqlarının bərqərar olduğu şəraitdə rayonda keçirilən seçkiləri yerli müşahidəçilər izləyiblər. Qeyd edək ki,təşviqat mərhələsində bütün namizədlərə sərbəst və aktiv kampaniya aparmağa şərait yaradılıb.Məntəqə seçki komissiyası üzvləri səslə-



rin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması prosedurlarını yekunlaşdırıblar. Dairə üzrə 8 bələdiyyəyə, ümumilikdə, 84 üzv seçilib. Qeydə alınan namizədlərin sayı 170 nəfər olub. Qaradağlı kənd tam orta məktəbinin binasındakı 27 saylı seçki məntəqəsində səsvermə prosesi seçici fəallığı şəraitində başa çatıb. Səhər saatlarından məntəqəyə üz tutan seçicilər konstitusion hüquqlarından istifadə edirək ən layiqli namizədə səs veriblər.

**"Respublika".**